

# "Rübai karvani, dördlük çələngi" silsiləsindən nümunələr

***Oqtay Rza,***
***şair, Əməkdar müəllim***

Çətin məqamlarda özünü sına,
Qütbü də dolaşıb gəz yana-yana.
Gör necə yaraşır doqquz cür iqlim
Sərvətlər ölkəsi Azərbaycana!

***

Gah uzaq səfərdə, gah yaxındayam,
Ya Samur, ya Araz qırağındayam.
Bir böyük arzum var - dünyada möhkəm
Sülh adlı iqlimin sorağındayam!

***

Bir haray əsrlik səda olubdur,
Bağrıma sancılan cida olubdur.
...Zəngəzur pay kimi verilib yada,
Naxçıvan quruda ada olubdur.

***

Min-min ev tikilib "əsər" olacaq,
Beton bahalaşıb mərmər olacaq.
Bakıya köçənlər axın-axındır -
Abşeron deyəsən şəhər olacaq...

***

Bir ölkə çox kasib, bir ölkə toxdur,
Bəd xəbər bağrıma sancılan oxdur;
Qoçuluq eyləyən dövlətlərdə var -
Niyə Türkiyənin atomu yoxdur?!

***

Deyirlər çox şeyi alma eyninə,
Adamı yandırır bilirsiniz nə?
Avropa Şurası razılıq verib -
Kişinin kişiylə evlənməyinə.

***

Göz verib sənə bu, mənə bu dünya
Gərək gülüstana dönə bu dünya.
Qədim zamanlarda sərhədsiz imiş,
Sərhədsiz olacaq yenə bu dünya!

***

Terror, müharibə, göz yaşı, fəryad...
Saxta dərmanlar da çoxalıb qat-qat.
İlahi! Ya sağalt bəşəriyyəti,
Ya da insanlığı yenidən yarat!

***

Bəşərin birliyi bütöv, tam deyil,
Minnətli yaxşılıq ehtiram deyil!
Nə üçün ən güclü üç-dörd ölkənin
Başında duranlar düz adam deyil?!

***

Günəşlə bərabər yanar şam olsun,
Həmişə bol suyum, saf havam olsun;
Yeddinci qatından baxım səmanın,
Yer adlı planet yurd - yuvam olsun!

2

Qış xoş havalarda yaza çevrilir,
Donan su daşlaşıb buza çevrilir.
Xlor - boğucu qaz,
Natrium zəhər,
Birləşib süfrədə duza çevrilir.

***

Taleyin verdiyi qismətlərə bax:
Birinə səfalət, birinə tac-taxt.
Qaranlıq düşməsə, axşam olmasa,
Hərə mürgüləyər istədiyi vaxt.

***

Qurumuş kəhrizə yenə su gəlsin,
Könlümə ilk bahar duyğusu gəlsin.
Gecənin məqsədi - tək insanın yox,
Hətta böcəyin də yuxusu gəlsin.

***

Kişinin elə bil naxışı yoxdur,
Acı söz desə də, qarğışı yoxdur;
Axşam düşənədək çaxan şimşəyin
Səsi, şöləsi var, yağışı yoxdur.

***

Yatır ağcaqanad duymadan heç nə,
Çovğunu qətiyyən almır vecinə;
Otuz dərəcəlik şaxtada ölmür,
Yayda qanımızı soracaq yenə...

***

Qan! Xoşun gəlirmi kim desə "qan-qan?"
Al-qızıl rəngindən yəqin razısan?
Bəlkə insanları qorxutmaq üçün
Bu qədər dəhşətli qıpqırmızısan?

***

Gərək fərqlənməsin iş ilə vədə,
Müdrik tövsiyənin əksidir hədə.
Bütöv - kristalın əlamətləri -
Sən demə eynidir zərrəsində də.

***

Özündə saxlayır neçə halı su -
Sirli, əsarətli, müəmmalı su.
Qar, yağış, buz, bulud, ildırım... olur
Ərzin ən qəribə mineralı su.

***

Qalın kitablar var - hikməti yoxdur,
Ölkə tanıyıram - milləti yoxdur.
Planet tapılıb - iki günəşli,
Heyf ki, şüurlu xilqəti yoxdur.

***

Qat-qat insaflıdır xəzri səmumdan,
Az deyil seçməyən çınqılı qumdan.
Robot inciməsin - hardasa bərk-bərk
Köhnə tas yapışıb köhnə hamamdan.

***

Az deyil müəmma, möcüzə, tilsim...
Gərək hər istedad parlaya bilsin!
Günəş meydanını dəyişir axşam -
Ay da, ulduzlar da nur yaya bilsin!

***

Qulagım eşidən, qəlbim duyandır,
Quzu mələyəndir, qurd ulayandır.
Xoruzun harayı, itin hürməsi -
Zülmətə bürünən kəndə həyandır.

***

Su dönüb buxara - qalxıb göylərə,
Yuyunmaq istəyir aran, dağ, dərə.
... Yerə varlığını borc bilən bulud
Yağış olacaq ki, qayıtsın Yerə.

***

Külək qəzəblənib budaq sındırır,
Dənizi nehrə tək çalxalandırır;
Külək - dəyirmanda dən üyüdən güc,
Həm də bayrağımı dalğalandirir.

***

Quzu mələməsi fəryad, həzin səs,
Maral balasına ahu deyilməz.
Beçə böyüdükcə xoruzlaşırsa,
Körpə uzunqulaq nə adlanır bəs?

***

Zirvənin vüqarı zirvə qarıdır,
Qaya silsiləsi qədim "barı"dır;
Kəpəzdə tapdığın mərcanqulular
Tropik suların yadigarıdır.

***

Doğru söz söyləyən "axmaqdır" niyə,
Bumeranq qayıdan toxmaqdır niyə?
Pələngə ən yaxın qohum olsa da,
Pişiklər bu qədər qorxaqdır niyə?

***

Qaya daş dövründən yazılı qalıb,
Novruz əvvəlki tək Kosalı qalıb.
Tonqalın təzədən yandırılması
Son kibrit çöpündən asılı qalıb.

***

Yayın istisində tez əriyər buz,
Göy üzü həmişə olmur buludsuz.
Dayanıb od ilə su arasında -
Yaşaya bilmərik susuz və odsuz.

***

Qısa söhbətini eyləmə uzun,
Çaşıb canavara söyləmə quzu.
Aysberq böyükdür göründüyündən -
Qalır su altında onda doqquzu.

***

Şor bulaq sünbül də, gül də bitirir,
Qarışqa özündən çox yük götürür.
Mis naqil xoşlayır xeyirxahlığı -
Ünvandan-ünvana işıq ötürür.

***

Yerdə ot cücərir - çiçək yaranır,
Səmada yeddi cür xoş rəng yaranır;
Qız bulud öpüşür oğlan buludla -
Lərzəli ildırım, şimşək yaranır.